*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2024*
*Səh. 322-330*

# ƏDƏBİYYATŞÜNASLIQ

https://doi.org/10.62837/2024.3.322

**OSMANOVA MƏLAHƏT NAZIM QIZI**
**Azərbaycan Respublikasının Prezidenti Yanında**
**Dövlət İdarəçilik Akademiyası**
**Bakı ş., Lermontov küç., 74**
**e-mail: malehat@inbox.ru**

## GÜNTER QRASS YARADICILIĞINDA SÜRREALİZM: “SİÇOVUL” ABSURD GERÇƏKLİK VƏ TRAGİKOMEDİYA KİMİ

**Açar sözlər:** G.Qrass, “Siçovul”, sürrealizm, absurd gerçəklik
**Ключевые слова:** Г. Грасс, «Крысиха», сюрреализм, абсурдная реальность
**Keywords:** G. Grass, “The Rat”, surrealism, absurd reality

XX əsr alman nəsrinin görkəmli nümayəndəsi Günter Vilhelm Qrass (Günter Wilhelm Grass, 1927-2015) almandilli yazıçılar birliyi – “Qrup 47”nin nümayəndələrindəndir. Ona dünya şöhrəti gətirən “Tənəkə təbili” (Die Blechtrommel, 1959) romanından sonra yazdığı “Pişik və siçan” ( Katz und Maus, 1961) və “İt illəri” (Hundejahre ,1963) romanları dünya ədəbiyyatının ən gözəl nümunələri sırasında yer alıb. Hər üç roman Almaniya tarixinin epik salnaməsi, gerçəkliyin real təsviri kimi dəyərləndirilib [9; 5; 1]. Ədəbi fəaliyyətinə görə 1999-cu ildə Nobel mükafatına layiq görülən yazıçı siyasi, ictimai görüşləri ilə də həmişə diqqət mərkəzində olub.

Günter Qrass “Tənəkə təbili”, “Pişik və siçan”, “İt illəri” romanlarında cəmiyyətdə hökm sürən laqeydlikdən, insanlararası münasibətlərin və mənəvi dəyərlərin yoxluğundan yazır, ailə, ənənə, din pərdəsi altında gizlənən yüzlərlə insan faciəsini önə çəkirdi. Yazıçı bu dəyərlərlə alver edən insanları ələ salır, onları oxucuların müzakirəsinə verirdi. “Pişik və siçan” romanı bu baxımdan alman tarixi ilə bağlı kəskin istehza və qara yumorla yazılmış əsərlərdəndir. Məhz bu əsərində yazıçı gənclərdən söz açır, zədələnmiş, şikəst olmuş gənclərlə bağlı cavabdehliyi alman faşizmindən sorur.

Günter Qrassın roman yaradıcılığında xüsusi yerlərdən birini də onun 1985-ci ildə qələmə aldığı “Siçovul” (Die Rättin) romanı tutur. Antiutopik pritçanı xatırladan və sürrealizmin ədəbi-estetik prinsiplərinə uyğun yazılan “Siçovul” romanı bəşəriyyətin gələcəyi haqda xəbərdarlıqdır. Tənəkə təbili olan Oskar Maserat bu əsərdə əlli yaşını keçib və altmış yaşını haqlayıb. Nənəsi Anna Kaşubkinanın yüz yeddi illiyini qeyd etmək üçün vətəninə qayıdır. İkinci Dünya müharibəsi artıq

uzaqda qalıb, doğma Qdansk şəhəri iyirminci yüzilliyin sonundadır və insanlar Polşa kommunist rejiminə qarşı çıxışlar edir. Yazıçı bu əsərində də istehza və sarkazmdan yan keçmir, amma eyni zamanda da yazı texnikasını dəyişir, modernistlərin şüur axınından istifadə edir, təhkiyəni bir neçə personajın diliylə çatdırır. G.Qrass atom müharibəsi, sosial kataklizmlər dövrünü təsvir edir və beləcə, bəşəriyyətin sona çatacağını səsləndirir. Roman çoxsaylı təhkiyə xətləri, biri-birini əvəzləyən fantastik nağıllar, macəra və səyahət janrını xatırladan sürrealist təsvirlərdən ibarətdir. G.Qrass Qothold Efraim Lessinqin "İnsan nəslinin tərbiyəsi" romanına parodiya edir, ağıllı davranış və görünüşü qazanıb əslində yalnız görünüş əldə edən insanı ələ salır, onun bilgiləri ilə davranışları arasında kəskin fərqi önə çəkir. Oxumaq və öyrənmək bacarığı insanda maddi nemətlərə hərislik, mənəvi dəyərlərə isə etinasızlıq yaradır fikri əsərin ana xəttini təşkil edir. Yuxularında viran qalmış və boşalmış yer kürəsinin üzərindən uçan təhkiyəçinin mülahizələri real görünür.

Sürrealizmin bədi priyomlarından yararlanan yazıçı yuxu ilə reallığı bir arada təsvir edir. Elə bununla bağlı absurd, inanılmaz hadisələr kollaj vasitəsilə naturalist təsvirlər şəklində ötürülür və obrazlar "ein ready-made" texnikası ilə canlanır. Sürrealistlər rasional estetikanı qəbul etmir və elə bu səbəbdən sirli qroteskə və xaotik üsluba üstünlük verir, diqqəti istehza, magiya və şüuraltıya yönəldirlər. Yazıçı üçün sürrealist təsvir nəzərdə tutduğu fikir və ideyaları ifadə etməyin, ənənəvi təsviri dağıtmağın düşünülmüş yazı üsuludur.

Sürrealizmin bədii-estetik prinsiplərindən yararlanan Günter Qrass "Siçovul" romanını silsiləvi yuxular, qarabasmalar şəklində yazır. Məhz bu yuxularda təhkiyəçi Qiyamət günündən sonrakı dünyanı təsvir edir. Təhkiyəçi bəşəriyyətin taleyini görür və elə bu səbəbdən tərbiyə janrında şeir yazmağa qərar verir. Məlum olur ki o, Milad bayramına bəşəri xəbərdarlıq, yer üzünü qurtara biləcək açıqca hazırlayır. Milad öncəsi adət edilən hədiyyələrin yerinə o, Milad ağacının altında qəfəsə salınmış siçovul arzulayır. Beləcə, romanın adına çıxarılan siçovul sözünün metaforik yükünə aydınlıq gəlir. Siçovul Milad bayramının əsas hadisəsinə çevrilir, təhkiyəçiyə dünyanın, bəşəriyyətin sonundan bəhs edir, həqiqətin tarixindən söz açır. Qarabasma, yuxu və ya fantastik hadisələr şəklində təsvir edilən keçmiş və gələcək uydurma və gerçəkliyin fonunda yeni məna kəsb edir. Bəzən oxucu hadisələrin yuxuda, yoxsa həqiqətdə baş verdiyini anlamaqda çətinlik çəkir. Otağı siçovulun qoxusu bürüyəndə bayram ovqatı öz yerini qarabasmalarla davam edən yuxuya verir. Yuxu və reallığın fonunda gah təhkiyəçinin, gah da siçovulun dialoqu sehrli, anlaşılmaz və qeyri-adi görünür. Ümumiyyətlə, kimin yuxuda və ya reallıqda danışmasını müəyyən etmək olmur.

"Siçovul" romanı fantastik qarabasmalar, fraqmentlər şəklində hadisələrin, fakt və reallıqların qarışıq təsvirinə çevrilir. Bu isə öz növbəsində idarə edilməyən yuxu effektini yaradır. Əsər şüur axını, yuxu və məntiqlə anlaşılmayan sözlərin birliyi ilə yanaşı qoşma süjetin iştirakı ilə davam edir. Məlum olur ki, təhkiyəçi incəsənət adamıdır və bəşəriyyətin tarixini yazmağa hazırlaşır. İkinci personaj siçovul isə qədim tabuları, qorxu və dəhşətin metaforası kimi bəşəri xəbərdarlıq, gerçəkliyi

doğru-dürüst deyə biləcək həqiqətin özüdür. Görünür yazıçı gerçəkliyi şüursuz məxluq – siçovul vasitəsi ilə ötürməklə deyilənlərin yükündən azad olur.

Siçovul yuxuda özünü sona yetirəcək cəmiyyətin gələcəyini səsləndirir, bədniyyət insan əməllərini ifşa edir. Təhkiyəçi isə özünün kosmik gəmisində viran edilmiş, xaraba qalmış torpaqlar üzərində uçur və bəşəriyyətin yox olmasına kədərlənir. Xarabalıqlar içində sağ qalmaq üçün yer üzünün hökmdarına çevrilən siçovullarla birləşmək mümkündürmü sualı təhkiyəçini düşündürür. Qiyamət öncəsi o, Oskar Maseratın filmi üçün yazılan ssenarini öz hekayəsi kimi təqdim edir, qurumuş meşələrin, mənəviyyatsız insanların, lazımsız nağılların aqibətindən söz açır. Qrim qardaşlarının müvəqqəti hakimiyyətindən, Smurfikilərin (meşədəki göbələk evlərində yaşayan uydurulmuş cırtdan humanoidlər – M.O.) Alman meşəsindəki (Deutscher Wald – almanların milli simvolu – M.O.) gəzintisindən bəhs edir.

Təhkiyəçi bəşəri dəyərlərin məhv olduğu, insanlığın yoxa çıxdığı bir toplumun sona yetdiyini elə təsvir edir ki, oxucu baş verənlərin təxəyyül, yuxu və ya qarabasma, yoxsa gerçək olduğunu anlaya bilmir. Siçovulla təhkiyəçi arasındakı dialoq müəmmalı qalır, onların hansı nəticəyə gəldikləri şübhəli görünür. O da naməlum qalır ki, siçovul təhkiyəçinin yuxusu, yoxsa yer üzündə qalan son canlıdır.

Dünyanın eybəcər şəklini təsvir edən yazıçı sürrealizmin prinsiplərinə sadiq qalaraq yuxu və gerçək arasında insan təxəyyülünün nəyə qadir olduğunu bir daha sübut edir. Absurd gerçəklik tragikomik situasiya yaradır. Romanın qrotesk, karnaval başlanğıcı onun poetik formasını, obrazlı mətnini müəyyən edir və beləcə, romanın bədii-estetik özünəməxsusluğunu yaradır. Alman tədqiqatçısı Hans Mayer yazır ki, yazıçı üçün satira bədii vasitə kimi həmişə maraqlı olub və elə bu səbəbdən "ədəbi xəbərdarlıq olan "Siçovul"un ana xəttini satira təşkil edir"[8, s. 67]. Onu da qeyd edək ki, Oskar Maseratın xarakterik xüsusiyyəti onu əhatə edən insanlara bənzəmir. Siçovulla dialoqda məlum olur ki, siçovul da canlılar aləminin heyvanlarına bənzəmir, məntiqli, iti ağlı ilə seçilir. Hər ikisi psixi durumları və fiziki görünüşləri ilə ətrafdakılardan fərqlənirlər və elə bu səbəbdən əsərin mətni faciəvi komediya prinsipinə uyğun gəlir. Yazıçı insanı heyvanla qarşılaşdırmaqla farsın imkanlarından istifadə edir, divanəliyin simulyasiyasında və gerçəkliyin təqdimində qeyri-adi fars üsullarını yaradır. Keçmişin faciələri yazıçının yeni düzəlişlərinə məruz qalır, indi daha kəskin və daha məntiqli şəkildə absurd gerçəklik kimi təsvir edilir. Başqa sözlə, G.Qrassın "Siçovul" romanında komikliklə yanaşı gerçək faciə də öz sözünü deyir. Elə bu səbəbdən hadisələrə bir neçə baxış bucağından yanaşmaq olur. Maraqlıdır ki, həm Oskar Maseratın, həm də siçovulun tarix, keçmiş və gələcəklə bağlı şərhləri gülüşlə dəhşətin, qorxu ilə inam hissinin vəhdətində verilir. "Siçovul" romanını təhlil edən alman tədqiqatçısı Barbara Garde yazır ki, ədəbi tənqid onun janrını müəyyən edərkən bir çox mülahizələr irəli sürmüş, amma "Siçovul"a ən yaxını antiutopiya janrında yazılmış sürrealist narrativin üstünlüyüdür[3]. Şüur axını və yuxu şəklində qarabasmaları xatırladan romanın mətni siçovulla insanın söz "döyüşünü" xatırladır. Bu döyüş sürrealist təsvirlərlə həm xəbərdarlıq, həm də bəşəri fəlakətin qaçılmaz olduğunu önə çəkir.

Təhkiyəçi ona hədiyyə edilən siçovulla polemikaya girir, mübahisə edir, mülahizələr irəli sürür. Siçovul isə öz nəslinin tarixçəsindən danışır, insan və siçovulların xüsusiyyətlərini müqayisə edir. Siçovulların birliyindən, birgə mübarizəsindən və səhvlərindən nəticə çıxara bilmək bacarığından, ağıllı, güclü və dözümlü olmasından danışır. Onlardan qorxub, onlara iyrənc məxluq kimi baxan insanlara gülür və onların axmaq və ağılsız olduğunu dilə gətirir. Ağılsızlıq bütün insan nəslinin faciəsi, bəşəriyyətin məhvi deməkdir və "Sizin sonunuz gəlib! Sizin tarix bitib!"[4, s.] - deyir.

Təhkiyəçinin onunla tanışlığı təəccüb və heyrətinə səbəb olur. Siçovulun insan əlində olduğu kimi beş barmağı var. O özünü sərbəst aparır, fikirlərində qəti və təmkinlidir. Özündən razı siçovul ona ağıl dərsi keçir, onu daha bacarıqlı və çevik olmağa səsləyir. Gah yuxuda, gah da onun düşüncələrində təhkiyəçi ilə fikir mübadiləsi aparır. Oxucu insanla siçovul arasındakı dialoqda dünyanın və insanın taleyindən, bəşəriyyətin varlığından, gələcəyin problemlərindən agah olur. Siçovul gerçəyin səsi, deyilə bilməyən bütün həqiqətin carçısı kimi çıxış edir. Onun istehzalı basqısı bütün varlığı ilə: "Siz nə vaxtsa mövcud idiniz, indi sizdən yalnız Heçlik qalıb. Siz daha nəyisə müəyyən etməyəcəksiz! Bütün imkanlar əldən getdi, siz artıq Heçliksiz və geriyə dönüş yoxdur!" [4, s.]. Siçovul ciddi-cəhdlə təhkiyəçini inandırmağa çalışır ki, gələcəkdə yalnız siçovullar qalacaq. O, siçovul nəslinin həmişə insanlara xəbərdarlıq etdiyini, köməklik göstərdiyini deyir. Elə bununla bağlı dəfələrlə şəhərlərə hücum edir, yolları bağlayır, beləcə, diqqət cəlb edir, amma təəssüf ki, insanlar bir nəticə çıxar bilmir. İnsanlar gündəlik həyatlarına o qədər aludə olurlar ki, ətrafda baş verənlərdən xəbərsiz qalırlar. Gündəlik həyat insanları düşünmək kimi ali dəyərdən məhrum edir, elə bu səbəbdən onlara göndərilən işarələri anlamır, dərk etmirlər. Siçovullar əsirlərlə insan ağılsızlığına şahidlik edir, elə bu səbəbdən insansız dünyaya hazırlaşır, zirzəmilər və yeraltı keçidlər tikir, gələcəyi təmin edirlər. Göründüyü kimi siçovul öz nəslinin rəşadətli keçmişindən bəhs edir, dünyanı bürüyən siçovul erasından söz açır.

Yazıçının bu şəkildə insan və dünya probleminə yanaşması onu yazı üsulunda özünəməxsus gedişlərə, qeyri-adi adi şəkildə şərhlərə meydan açır, sürrealist bədii priyomlara zəmin yaradır. Siçovulun qarabasmaları sürrealizmin yuxu və hallüsinasiya təsvirini doğruldur. G.Qrass özünün "İdrakın yuxusu" traktatında yuxunu canlılarla baş verən ən müsbət hal kimi dəyərləndirir və yazır ki, "Gecə yuxuları, fantaziya uçuşları və nağıllar" bizi yatmağa qoymur. İnsanın yata bilməyi deyil, yuxuları vacibdir. Almaniya yuxuları "faşizm adlanan dəhşətdir", bəşəriyyət indi onu başqa şəkildə həyata keçirir"[3, s.27].

Fraqmentləri və biri-birini əvəz edən yuxuları xatırladan romanda hadisələrin istiqaməti dəyişir, təhkiyəçi bəzən "bu yuxudur" ifadəsini işlədir. Bəzən isə "yuxumdakı siçovuldur" deyir. Qırıq-qırıq hekayələr sona çatmamış yeni hekayə başlayır və bu şəkildə də davam edir. Yuxu və onun gətirdiyi qarabasmalar o qədər davam edir ki, siçovul "biz deyil, siz insanlar bizim yuxulara gəlirsiz, siz artıq yoxsuz..."[4, s.25] deyir. İnsan nəslinin yer üzündən silinməsi əsərin sonunda fakt kimi görünür.

Yuxuda öz layiqli yerini tapan siçovul ağıllı məxluq kimi mənəvi hamiyə, söz sahibinə çevrilir. Siçovul özünü və nəslini ideologiyası olan xalqlara bənzədir: "İnsanın ciddiyə almadığı qayda-qanunları biz nəzərə alırdıq. Dini dözümlülük, birlik, hamının birgə qəbul etdiyi inam və əcdadına sevgi hissi və nəhayət səhvlərdən nəticə çıxarmaq"[4, s.28]. Siçovul nəslinin ən böyük nailiyyəti əbədi qayıdış – Məsihin gəlişinə inam və ümid hissinin bitməməsidir.

Siçovulun təsvir etdiyi tanrı da əcaib görkəm alır. Ona görə Yaradan qisasçı, yalançı və riyakardır. O, öz yaratdıqlarını lənətləyir, onlara nifrət edir. Siçovul gerçək tarixdən, dünyanın yaranmasından və onun məhv olmasına qədər keçən yoldan bəhs edir. Saysız hesabsız tarixi həqiqətlərə aydınlıq gətirir, insanların qəbul etmədikləri gerçəkliklərə yenidən nəzər salır, mövcudluğun mahiyyətindən söz açır. Beləcə, özünü "seçilmişlər" sırasına daxil edir.

Absurd, sürrealist təsvirlər fonunda oxucu gerçək hadisələri, tarixi faktları tanıyır, siçovulun gerçək ittihamlarını başa düşür. Dünya hökmranlığını ələ alan siçovullar dini görüşləri, kilsə qanunlarını bərpa edir. Siçovullar Anna Koşubkinanın gəmirib qopardıqları sol qulağını və paltarının altında qalan Oskar Maseratı Məsih elan etdikdən sonra düzələn fiquruna sitayiş edirlər. Siçovullar bu əşyalara Oskar Maseratın kilsədə özü üçün ayırdığı yerə qoyub Müqəddəs Məryəmlə İsanın uşaqlığını əks edən ikona kimi tənzim edirlər. Yazıçı təsviri sürrealist boyalarla həyata keçir, oxucu baş verən hadisələri yuxu kimi görür.

Siçovullar bu şəkildə dini yenidən bərpa edir, ənənəvi mərasimlərə yeni məna verir, kilsəyə bir neçə "müqəddəs" əşyalar yerləşdirirlər. Bu sırada partlayış zamanı Anna Koşubkinanın ağzından düşən qoyma çənəsi də yer alır. Ölmüş Oskara sitayiş yeni eranın dini doqması, sitayiş mənbəyidir: "Düzdür, biz qoca qarını və onun qurumuş nəvəsini bütün dualarımıza daxil etmişdik, amma məlum deyil ki, bu insan hansı şəkildə yenidən dünyaya qayıdacaq" [4, s.]. Yazıçı qrotesk və kalambur yaradır, oxucunun dini bilgilərini ələ salır. Başqa sözlə, Oskar Maserat obrazını dini kitabdakı Tanrı Oğlu kimi deyil, əksinə insan Oğlu kimi təqdim edir. Beləcə, gen mühəndisliyinin gətirdiyi yeni insan tipinə gülür. Susana Lanq yazır ki, Günter Qrassın sürrealizmi "fantastik realizmdir" və onu Latın Amerika magik realizminə yaxınlaşdırır. Tədqiqatçının belə yanaşması da "Siçovul" romanına aydınlıq gətirir. Məlumdur ki, magik realizmin təhkiyə prinsipləri sürrealizmə yaxındır və bəzən onları bir arada təsvir edirlər [7, s.19].

Yazıçının qrotesk-sürrealist təsviri gerçəkliyi inanılmaz effektini yaradır, personajların şahidi olduqları hadisələr isə şərin yer üzündə əbədi təcəlləsi kimi görünür. O da qeyd edilməlidir ki, bəşəri bəla olan insan ağılsızlığı romanın məna yükünü daşıyır və dəhşət saçan hadisələr şəklində roman boyu təhkiyəçini təqib edir.

Müəllifin sürrealist təhkiyəsi hadisələrin tarixi-mədəni və mənəvi-ruhani yerdəyişməsini önə çıxarır, insan Heçliyə dönür, onun qorxduğu və iyrəndiyi, şərin təcəssümü olan siçovul qələbə çalır. Bu iblisani varlıqlar insan və onun yaratdığı tarix üzərində məhkəmə qurur, həyat və ölümə məna verən həqiqət və əbədilik ideyalarını tərsinə çevirir. İnsan öz varlığından utanır, həyatın mənasızlığını dərk edir. Dolayısı ilə həyatın puç, fani olduğunu, əbədi həyatın yoxluğunu başa düşür.

Sürrealist təsvirlər onda əbədi həyat haqqında düşüncələrin əbəs olduğunu, onun yerinə boşluğun və mənasız sonsuzluğun varlığını müəyyən edir. Romandakı sürrealist yazı üsulunu xüsusi şəkildə vurğulayan alman tədqiqatçısı Tomas Knişe haqlı olaraq "təhkiyə qatlarının" şüur axınından yararlandığını, bu şəkildə əsərin daha aydın çatdırılmasınından bəhs edir [6,s.18]. Demək yazıçının qrotesk-sürrealist bədii aləmi şüurlu şəkildə gerçəkliyin fraqmentləriylə baş verir. Məntiq və irrasionallığın qarşılıqlı əlaqəsi müəllif təhkiyəsində surreal şəkil alır və yazıçının açıq şəkildə deyə bilmədiyi fikirləri ötürür.

Öncəgörmə-hallüsinasiya-yuxu, ağılsızlıq-dəlilik kimi sürrealist təsvirlər "Siçovul" romanının ideya mənasını, gerçəkdə baş verənləri aydın şəkildə izah edir. Rasional qavrayışlardan kənara çıxan, bunun yerinə reallığı xaotik şəkildə təsvir edən yazıçı ənənəvi təhkiyədən qaçır, oxucunu düşünməyə vadar edir. Başqa sözlə idrakın təmiz halda deyil, sürrealist düşüncədə, irrasional, fantastik aləmdə mövcudluğuna işarə edir. Reallığın təkcə ağıldakı, şüurdakı mövcudluğunu deyil, şüuraltıda, yuxularda, şüur axınındakı mövcudluğunu irəli sürür. Həmçinin fərdin birmənalı olmayan mahiyyətini, həqiqətin qeyri-müəyyən məzmununu və məntiqin çoxluğunu bəyan edir. İnsan şüursuzluq halında müxtəlif epizodları, assosiasiyaları, fraqmentləri və təxminləri bir araya gətirir. Belə halda o, rasional bilikləri rədd edir və yerinə ağıl üçün əlçatan dünya mənzərəsinin məhdudluğunu və darlığını göstərir.

Təhkiyəçinin yuxularına əsaslanan sürrealist təsvir mürəkkəb struktura malikdir. Bu onunla bağlıdır ki, yuxu obyektiv reallıqdan uzaqlaşmanı diktə edirsə, həmçinin reallığın fantastik, sürreal aləmə keçidini təmin edir. Elə bu səbəbdən romanın sonu gerçəkliyi, həqiqəti göstərməyə iddia edən siçovulun təntənəsi ilə bitir. Yuxulu təhkiyəçinin mübarizəsi nəticəsiz, bəzənsə açıq qalır. Onun təxəyyülünün bəhrəsi olan siçovulun qarabasmaları isə reallıq kimi görünür. Elə bu səbəbdən baş verənlər qrotesk şəklində anlaşılır, yuxunun real olması şübhə altında saxlanılır, oxucuya yuxu və reallıq arasında seçim etməyə işarə edir.

Yazıçı tarixin alternativ variantını və dərkini irəli sürür, tarixə yenidən baxmaq, onu yenidən dərk etməklə oxucuya bəşəri faciələrdən qaçmaq olar fikrini ötürür. Əsərdəki uydurma və reallıq yuxu kimi görünür, onun həqiqət, yoxsa yazıçının inanılmaz dərəcədə real görünən yazı texnikası olması qeyri-müəyyən qalır. Görünən odur ki, "Siçovul" romanı fraqmentlər, biri-biri ilə uzlaşmayan hadisələr və fərziyyələr şəklində yazılıb. Ənənəvi süjetdən imtina edən yazıçı sürrealist üsluba meydan açır, yuxu və qarabasmalar şəklində fikirlərini irəli sürür.

## Ədəbiyyat:

1. Cepl-Kaufmann G., Gunter Grass. Analyse des Gesamtwerkes unter dem Aspekt von Literatur und Politik. Kronberg: Scriptor Verlag, 1975. 305s.
2. Franfoise G. Wenn wir von Europa sprechen. Ein Dialog. Frankfurt.M.: Luchterhand, 1989. 184s.

3. Garde B. "Selbst wenn die Welt unterginge, wurden deine Weibergeschichten nicht aufhören": Zwischen "Butt" u "Rattin" Frauen u. Frauenbewegung bei Gunter Grass. Frankfurt : Peter Lang GmbH. 1988. 305 s.
4. Grass G. Die Rättin. Verlagsgesellschaft mbH, Co. KG. 1998. 496s.
5. Jürgs M. Bürger Grass. Biografié eines deutschen Dichters. München: C. Bertelsmann, 2002. 447 s.
6. Kniesche, Thomas W. "Die Genealogie der Post-Apokalypse Giinter Grass', Die Rattin. Wien: Passagen, 1991. 232s.
7. Lange S. Die reflektierte Wirklichkeit. Deutsche und lateinamerikanische Gegenwartsliteratur im Vergleich am Beispiel der Werke von Giinter Grass und Fernando del Paso. Frankfurt-M.: Lang,1992. 321s.
8. Mayer H. Felix Krull und Oskar Matzerath. Aspekte eines Romans. // Positionen des Erzahlens / Heinz Ludwig Arnold, Theo Buck (Hgg). Miinchen: Beck, 1976. s. 49-67.
9. Vormweg H. Gunter Grass: mit Sclbstzeugnissen und Bilddokumenten dargest. 2. erg. und aktualisierte Aufl. Reinbek bei Hamburg: Rowohlt, 1993. 159 s.

**Xülasə**

**Günter Qrass yaradıcılığında sürrealizm: "Siçovul" absurd gerçəklik və tragikomediya kimi**

Müasir alman yazıçısı Günter Qrassın "Siçovul" romanı sürrealizmin bədii-estetik prinsiplərinə uyğun yazılan əsərlər sırasında yer almaqdadır. Antiutopik pritçanı xatırladan "Siçovul" romanı bəşəriyyətin gələcəyi haqda xəbərdarlıqdır. Roman çoxsaylı təhkiyə xətləri, biri-birini əvəzləyən fantastik nağıllar, macəra janrını xatırladan sürrealist təsvirlərdən ibarətdir. Adsız təhkiyəçi ilə siçovul arasındakı dialoq romanın ideyasını təqdim edir. "Siçovul" romanındakı fantastik qarabasmalar fraqmentlər şəklində hadisələrin, fakt və reallıqların qarışıq təsvirinə çevrilir. Bu da öz növbəsində sürrealizmdə istifadə olunan və idarə edilməyən yuxu effektini yaradır.

Əsər şüur axını, yuxu və məntiqlə anlaşılmayan sözlərin birliyi kimi nəzərdə tutulub və dünyanın eybəcər şəklini təsvir edir. Günter Qrass sürrealizmin prinsiplərinə sadiq qalaraq yuxu və gerçək arasında insan təxəyyülünün nəyə qadir olduğunu göstərir. Absurd gerçəklik tragikomik situasiya yaradır. Romanın qrotesk və karnaval başlanğıcı onun poetik formasını, obrazlı mətnini müəyyən edir və beləcə, romanın bədii-estetik özünəməxsusluğunu yaradır. Absurd, sürrealist təsvirlər fonunda oxucu gerçək hadisələri, tarixi faktları tanıyır, siçovulun ittihamlarını başa düşür. Yazıçının qrotesk-sürrealist təsviri bəşəri bəla olan insan ağılsızlığını irəli sürür.

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2024*
*Səh. 322-330*

## РЕЗЮМЕ

## СЮРРЕАЛИЗМ В ТВОРЧЕСТВЕ ГЮНТЕРА ГРАССА: «КРЫСИХА» КАК АБСУРДНАЯ РЕАЛЬНОСТЬ И ТРАГИКОМЕДИЯ

Роман современного немецкого писателя Гюнтера Грасса «Крысиха» принадлежит к числу произведений, написанных согласно художественно-эстетическим принципам сюрреализма. Напоминающий антиутопическую сказку роман «Крысиха» является предупреждением о будущем человечества. Роман состоит из многочисленных сюжетных линий, альтернативных фантастических рассказов и сюрреалистических образов, напоминающих жанр приключения. Диалог безымянного повествователя и крысихи поясняет идею романа. Фантастические кошмары в романе «Крысиха» превращаются в смешанное описание событий, фактов и реалий в виде фрагментов. Это, в свою очередь, создает неконтролируемый эффект сна, используемый в сюрреализме.

Произведение задумано как поток сознания, сна и сочетание слов, которое невозможно понять логикой и описывает искаженную картину мира. Придерживаясь принципов сюрреализма, Гюнтер Грасс показывает, на что способно человеческое воображение между сном и реальностью. Абсурдная реальность создает трагикомическую ситуацию. Гротескно-карнавальное начало романа определяет его поэтическую форму, образный текст и тем самым создает художественно-эстетическое своеобразие романа. На фоне абсурдных, сюрреалистических образов читатель узнает реальные события, исторические факты, понимает обвинения крысихи. Гротескно-сюрреалистическое изображение писателя наводит на мысль о человеческой глупости, которая является бичом человечества.

**OSMANOVA MALAHAT**

## SUMMARY

## SURREALISM IN THE CREACTIVITY OF GÜNTHER GRASS: “THE RAT” AS AN ABSURD REALITY AND TRAGICOMEDY

The novel “The Rat” by the contemporary German writer Gunter Grass belongs to the number of works written according to the artistic and aesthetic principles of surrealism. Reminiscent of an anti-utopian fairy tale, the novel “The Rat” is a warning about the future of mankind. The novel consists of numerous plot lines, alternative fantasy stories and surrealistic images reminiscent of the adventure genre. The dialogue between the unnamed narrator and the rat explains the idea behind the novel. The fantastical nightmares in the novel “The Rat” are transformed into a mixed description of events, facts and realities in the form of fragments. This in turn creates an uncontrollable dream effect used in surrealism.

The work is conceived as a stream of consciousness, a dream and a combination of words that cannot be understood by logic and describes a distorted picture of the world. Adhering to the principles of surrealism, Gunter Grass shows what the human imagination is capable of between dream and reality. The absurd reality creates a tragicomic situation. The grotesque-carnival beginning of the novel determines its poetic form, figurative text and thus creates the artistic and aesthetic originality of the novel. Against the background of absurd, surrealistic images, the reader recognises real events, historical facts, and understands the accusations of the rat. The grotesque-surrealistic portrayal of the writer brings to mind human stupidity, which is the scourge of mankind.

**Rəyçi: filologiya elmləri doktoru, professor H.Ə.Əliyeva**